# Həmkarlar İttifaqı 25 illik yubileyini qeyd etdi



Bu günlərdə Azərbaycan Sahibkarlar, Özəl və Elm Müəssisələri İşçiləri Həmkarlar İttifaqının yaranmasının 25 illik yubileyinə həsr olunmuş geniş tədbir keçirildi. Tədbir iştirakçıları ilk öncə Fəxri Xiyabana gedib ulu öndər Heydər Əliyevin və oftalmoloq alim, akademik Zərifə Əliyevanın məzarı önünə gül dəstələri qoyaraq xatirələrini yad etdilər.

Yubiley tədbirini giriş sözü ilə açan Azərbaycan Sahibkarlıq, Özəl və Elm Müəssisələri İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanov son günlər vətənimizin müdafiəsi uğrunda gedən döyüşlərdə həlak olan hərbiçilərin xatirəsini yad edərək ordumuzun uğurlarından danışdı. Ölkəmizdə sahibkarlığın inkişafına dövlət qayğısından söz açaraq dedi: “Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə özəl sektörün inkişafı üçün də zəmin yarandı. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda nəinki yeni-yeni formalaşmağa başlayan sahibkarlar ordusunun, eləcə də bütün sahələrin ölkə iqtisadiyyatında önəmli yer tutmasını təmin edən dövlət sənədlərini imzaladı. Yerli və xarici sahibkarlarla görüşlər keçirdi. Ulu öndərin müəyyənləşdirdiyi kursu 2003-cü ildən Azərbaycana inamla rəhbərlik edən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu kursun müvəffəqiyyəti ondan ibarətdir ki, o, yeni dövrün tələblərinə uyğun şəkildə aparılır. Həqiqət budur ki, qarşıya çıxan müəyyən problemlərə baxmayaraq, ölkənin dinamik inkişafı, insanların sosial həyat şəraitinin yaxşılaşması, son illərdə respublikada aparılan mədəni quruculuq işləri, ümumilikdə həyata keçirilən düşünülmüş siyasətin, sistemli və kompleks proqramların məntiqi nəticəsidir”.

Sonra Hİ Respublika Komitəsinin sədr müavini Zemfira Bünyatova qurumun 25 ildə keçdiyi yol və fəaliyyəti barədə ətraflı məlumat verdi.

AHİK sədri, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının və Pan Avropa Regional Şurasının vitse prezidenti, Milli Məclisin deputatı Səttar Mehbalıyev çıxış edərək yubiley münasibəti ilə Hİ Respublika Komitəsinin kollektivini təbrik edərək onlara töfsiyyələrini verib gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Tədbirin sonunda sahə Həmkarlar İttifaqının bir qurup fəal üzvünə AHİK-in və Respublika Komitəsinin Fəxri fərmanları təqdim olundu.

**Nurəngiz ADİLQIZI,**
**“Respublika”.**